Yanvarın 13-də Bakıda keçirilmiş Azərbaycan İlə İtaliya arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiyanın 6-cı iclasında elm və təhsil nazirinin müavini Həsən Həsənli iştirak edib.

İclasda çıxış edən nazir müavini iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti barədə iştirakçıları məlumatlandırıb. Nazir müavini çıxışında İtaliya-Azərbaycan Universitetinin fəaliyyəti, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi, birgə təhsil layihələrinin dəstəklənməsi, eləcə də ümumi və ali təhsil müəssisələri arasında akademik əlaqələrin dərinləşdirilməsi istiqamətində görülən işlər barədə də məlumat verib.

Komissiyanın iclasında həmçinin iki ölkə arasında ticari-iqtisadi, sənaye, energetika, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları, səhiyyə, eləcə də mədəniyyət sahələrində əməkdaşlığın mövcud vəziyyəti və potensial əməkdaşlıq imkanları müzakirə olunub.

Yekunda iclasın yekunlarına dair Protokol imzalanıb.